FƏRZALI RÜSTƏMLİ

KÖNÜL KİTABI

Ш6
R 96

FƏRZALI RÜSTƏMLİ

Arx- 233405

KÖNÜL KİTABI

M.F.Axundov adına
Azərbaycan
kitabxanası

BAKI – «Nurlan» - 2005

Redaktor:

Yaqub BABAYEV.
filologiya elmləri namizədi, dosent

Naşir:

FƏRRUX RÜSTƏMOV,
pedaqoji elmlər doktoru, professor

F.Rüstəmli. Könül kitabı. B., Nurlan, 2005, - 80 s.

Bu kitab gənc şair Fərzalı Rüstəmlinin işıq üzü görmüş ilk kitabıdır. Kitabda müxtəlif səpgili şerlər toplanmışdır. Siz şairin fikir və düşüncələri, arzu və istəkləri, ümumiyyətlə, həyata baxışları ilə yaxından tanış ola biləcəksiniz.

$R\frac{4702000000-500}{N-098-2005}$ *qrifli nəşr*

© F.Rüstəmli, 2005

KÖNÜL, İMAN AMANATI

Allah adı ilə başlanan və «Könül kitabı» adlanan bu kitab əslində iman sahibi olan bir şəxsin poetik könül çırpıntılarıdır. Bu insan daim özünü dərk etməyə çalışmış, özünün kimliyini anlamağa cəhd göstərmişdir. Çünki o, Böyük Yaradanın və həyatın dərkinin insanın özünü dərk etməsindən başladığını bir həqiqət kimi yaxşı anlayır.

Ta qədimdən «özünü dərk et!» kəlamı ilə insanın fəlsəfi dərkinin əsası qoyulub.

Özünüdərk, dünyanı dərk, Allahı dərk!

Özünü dərk edən, tanıyan Allahını tanıyar. Müəllif də bu çevrədə bununla bağlı dini-fəlsəfi düşüncələrini poetik dilə çevirib.

Əgər biz etiraf ediriksə ki, bizi Yaradan xəlq edib, həyatın mənası da Ona xatir yaşamaqdır. Bu səni məhəbbətə, eşqə çatdırar. Eşq, ariflərin nəzərincə, məhəbbətin zirvəsidir. Eşqin qəlbə daxil olması necə ola bilər? Tarla daşdan-kəsəkdən təmizlənməsə, münbitləşdirilməsə orada toxum əkmək olarmı?! Əsla yox! İnsan da gərək öz nəfsiylə cihad eləsin, nəfsini yandırsın, təkəbbürlüyü – mənəmliyi atsın, könlündə dünya sevgisini – şöhrət, məqam, var-dövlət sevgisini İlahi sevgi əvəz eləsin:

Əgər nəfsin yanmayıbsa,
Mənəmliyi danmayıbsa,
Könlün hər an anmayıbsa,
«Eşq», «eşq» demək əfsanədi...

Ariflər deyir: insan Allah xatirinə yaxşı işləri yerinə yetirməklə mərhələ-mərhələ kamala çatar:

Sevgi odu düşən könlüm,
Sevginən Allaha xatir!

Şair F.Rüstəmli Əhli-Beyt aşiqidir. O, 12 imamın müqəddəsliyini qəbul edir, öz yaradıcılığında dönə-dönə onları tərifləyir. Xüsusilə birinci İmam Əli Əleyhissəlam və

İmam Hüseyn Əleyhissəlam böyük və ülvi şəxsiyyətlər kimi daha çox diqqət mərkəzində saxlanılır. Ümumiyyətlə, şairin dünyagörüşünün, əqidə və həyata münasibətinin formalaşmasında İmam Əlinin (Ə) müdrik kəlamlarının, şəxsi davranış və həyat tərzi ilə əlaqəli bizə gəlib çatan məlumatların böyük rolu olmuşdur. Ən müqəddəs islam fədailərindən olan, din və Allah yolunda öz canını fədakarlıqla qurban verən İmam Hüseynin (Ə) şəhadətə yetirilməsi ilə əlaqəli «Ağlar» şerində dərin bir niskil, acı bir fəryad vardır:

Yazda güllər açılar,
Güllərdə ətir ağlar.
Bu dərdi bölüşəndə
Dözməyib sətir ağlar.

Allah yolunu unudub şeytanı yolu tutanlara, həqiqəti atıb nəfsə, maddi dünyaya, onun keçici və aldadıcı nemətlərinə, gözəlliyinə uyanlara qarşı istedadlı şair F.Rüstəmlinin məsləhəti budur ki, zamanı qınamayın, özünüzü qınayın. Zəmanə üz qarası, zaman günahkar deyil. Günəş həmin Günəşdir, Ay həmin Aydır, dövran həmin dövrandır. Günah işlədən və həqiqəti dərk etməyən bəndələr çox vaxt bu günahı zamanın, dövranın üstünə yıxırlar. Dünyanı bir alver məkanına, ticarət meydanına bənzədən sənətkar haqlı olaraq yazır:

Bu nə ticarətdir, bu nə bazardır?
Aldığın rütbədir, satdığın ardır.
Namus da, şərəf də səndən bezardır,
İstəyirsən bunda yüzünü qına.

Bəşər övladına xas olan ən nöqsanlı cəhətlərdən biri də odur ki, o, maddi bir şeyi itirdikdə ciddi-cəhdlə onu axtarıb tapmağa çalışır, lakin itən mənliyi, şərəfi axtarmır ki axtarmır:

İtiyini insan elə axtarar,
Mənlik itər axtarmayar nədəndi?!.

Həzrət Əliyə məhəbbət və ondan mənəvi qidalanma ona gətirib çıxarmışdır ki, bəzən şair İmam Əlinin kəlamlarını bədii təbliğat, həm də nəsihət vasitəsi kimi şerə çevirmişdir. Məsələn, bu böyük şəxsiyyətin belə bir müdrik kəlamı vardır: «Allah rəhmət eləsin o kəsə ki, hardan gəldiyini, harda olduğunu, hara gedəcəyini bilir». Bu kəlamı gənc şair ustalıqla bədii sözə çevirmişdir:

Haradandır, harayadır karvanım,
Haradadır, gəlib keçir dövranım.
Dinim islam, Həzrət Əli imamım,
Mövlam Cənnət-Cəhənnəmi böləndi.

Burada Əlinin həqiqət yolu ilə gedənlərin Cənnətə, bu yoldan azanların isə Cəhənnəmə düşəcəyinə işarə olunur.

F.Rüstəmli bir filosof kimi düşüncələrə dalır. Onu düşündürən qlobal problemlərdən biri də budur: bəşəri nə xilas edəcək? İndi könüllər aralı düşüb, qəlblər bir-birinə ögeyləşib. Halbuki «insandır insanın hər an simsarı». İnsanları qəlbdə sevgi telləri birləşdirə bilər. Bu isə Haqqa baş əyməklə mümkündür. Əsl azadlıq Haqqa baş əyməkdir:

Qoy sevgi odunda bişsin ürəklər,
Qoy Haqqdan tutulsun gözəl diləklər,
İlim-ilim itsin hiylə, kələklər,
Mənim Zeynəb nənəm bu gümandadı.

Şairin müdrik qənaətlərindən biri də budur ki, insan dünyaya əli bağlı gəlir, əlləri açıq gedir, nə aparır – heç nə. Onun axirətə apardığı yalnız yaxşı əməlidir:

Ovuclar yumulu gətirir Allah,
Gedəndə açılır, çəkirik bir ah,
Köhnə dəyirmandır bu dünya mətah,
Üyüdər, Fərzalı, zamanı vardır.

Şairi daim dünyanın ölümü və qalımı maraqlandırır. Ölüm nədir? Həyat nə üçündür? Həyatın mənası nə ilə ölçülür, ölümün hikməti nə ilə müəyyənləşir? Gənc qələm sahibini bir hikmət axtaran kimi həmişə həyatın bu cür mübhəm problemləri düşündürür. Filosof düşüncəli şairə

görə, ölüm yoxluq yox, əbədiyyətdir. «Ölüm əbədiyyətdir» şerində onun bu qənaəti özünün dərin poetik həllini tapır:

Hər şeyin öz əksi var:
Acının əksi şirin,
Dayazın əksi dərin.
Həyatın əksi ölüm.
Ölümün əksi, sən cə,
Həyat deyilmi, gülüm?!.
İkisi qovuşuqdur:
Həyatdan keçən ölüm,
Ölümdən keçən həyat.
Ölümün o tayında
Ölümsüzlük, bir büsat.
Fərzalı, həqiqətdir:
Ölüm əbədiyyətdir!

F.Rüstəmlinin bədii irsinin mühüm bir qolunu vətənpərvərlik şerləri təşkil edir. O daim doğulub böyüdüyü Göycə mahalının həsrəti, onun intizarı, dərdi-səri ilə yaşayır.

Yağı tapdağında qalan vətən torpağının şirin xatirələri həssas qəlbli şairin poetik yaddaşını məşğul edir, onu düşündürüb daşındırır. Bəzən də xoş ovqat yaradan keçmiş hadisələr bir kino lenti kimi onun xəyalından keçir:

Yadımdadı o küt gedən kündələr,
Can-can deyib yaxma verən nənələr,
Sac asanda yığışardı nəvələr,
Ocaq daşı, təndirimiz, əlvida,
Daha gəlməz hənirimiz, əlvida.

Şair Fərzalının sənətkarlıq qabiliyyətini üzə çıxaran bədii faktlardan biri də onun ikilik və dördlük formalarında yazdığı şerləridir. Bu tipli poeziya nümunələrində o, daha çox müdrik bir nəsihətçi, əxlaq müdərrisi, hikmət təbliğatçısı, aqil şəxsiyyət kimi çıxış edir. Bəzi nümunələrə nəzər salaq:

Məhəbbət paylayaq gəl qucaq-qucaq,
Məhəbbət dünyanın xilası ancaq.

Milçək yara-xora axtarar bizdə,
Eyib axtarmayaq bir-birimizdə.

Sənərkarın bir-birindən gözəl, dəyərli və hikmətli kəlamları da bu qəbildəndir. «Kəlamlar» başlığı altında verilən hikmət və nəsihətlər didaktik-bədii fikir tariximizin dəyərli nümunələrindən sayıla bilər.

Şair F.Rüstəmli Azərbaycan poeziyasının rəngarəng janrlarında qələmini sınamışdır. Onun bayatıları da orijinal səciyyə daşıyır. Bu bayatılarda bəzən kədər, bəzən ilahi hikmət, bəzən fəlsəfi fikir, bəzən də didaktika və nəsihət ideyaları ifadə olunur. Belə bir bayatı öz məzmun dərinliyi və forma gözəlliyi ilə diqqəti cəlb edir:

Əzizim cana bağlı,
Cismimiz cana bağlı.
«Can» desən cana gəlləm,
Canım bu «cana» bağlı.

F.Rüstəmlinin oxuculara təqdim olunan bu kitabdakı şerlərini qısa şəkildə xülasə etdikdən sonra bu nəticəyə gəlmək olar ki, Fərzalının timsalında poeziyamıza yeni bir nəfəs gəlmiş, yeni və layiqli bir qələmlə sevinmiş, yeni nümunələrlə zənginləşmişdir. Biz Azərbaycan oxucusunu və mömün kəsləri bu kitabın işıq üzü görməsi münasibətilə təbrik edirik. Fərzalı şerlərinin əsas qayəsi isə Allah sevgisi və iman qayğısıdır. Elə buna görə də sənətkar bir şerində deyir: **«KÖNÜL, İMAN AMANATI!».**

YAQUB BABAYEV,

filologiya elmləri namizədi, dosent

MÜƏLLİFDƏN

Sevəlim, sevilәlim,
Dünya kimsəyə qalmaz...
Y.İmrə

«İnsan! O, müqəddəs bir kainatdır!» - S.Vurğun deyib. İnsan dünyası da, insan duyğuları, hissləri də müqəddəsdir. Müqəddəs insan isə sevgi ilə yaşamalı, sevgi ilə yaşatmalıdır. İlahi insanı da sevgidən yaratdı, sevgidə yaşadır, sevgiyə də qovuşduracaq.

Şairlər də bu sevgini poeziyada yaşadanlardır. Özləri təpədən-dırnağa sevgiyə çevrilməyənlər Böyük, Müqəddəs Sevgini yaşada bilməzlər.

ŞAİRİN

Ağrı-acısını içinə salıb,
Dünyanın dərdini çiyninə alıb,
Duyan könülləri nişanə alıb,
Yol gedir, yorulmaz sözü şairin.

İnsan kimi, qana-qana yaşayar,
Zəmanəni dana-dana yaşayar,
İllacı nə, yana-yana yaşayar,
Nə vaxt yeriyib ki, düzü şairin?!

Ona daş atana şair gül atar,
Düşməninə belə, sevgiylə baxar,
Sevgiylə döyüşər, sevgiylə yaxar,
Sevgiyə çevrilər özü şairin.

Nə adildir ölüm – hər kəsə eyni,
Şairin də gəlib sıxar əlini,
Dünyadan nigaran gedibdir deyni,
Torpaqda nigaran gözü şairin.

I HİSSƏ

KÖNLÜNDƏDİ

Zatı gözəl hər yerdədi,
Həm göydədi, həm yerdədi.
Hara getsən önündədi,
Uzaq deyil, könlündədi.

Varlıq Onun nişanəsi,
Odur bülbülün naləsi,
Məcnun Onun divanəsi,
Leylisə bir bəhanədi.

Əgər nəfsin yanmayıbsa,
Mənəmliyi danmayıbsa,
Könlün hər an anmayıbsa,
«Eşq», «eşq» demək əfsanədi.

17.04.03.

ALLAHA XATİR

Yurduma Günəş saçılıb,
Saçılıb Allaha xatir!
Bağlarda güllər açılıb,
Açılıb Allaha xatir!

Güllərdə bülbüllər oxur,
Oxuyur Allaha xatir!
Təbiət öz xalısını
Toxuyur Allaha xatir!

Qala kimi duran əsgər,
Durginən Allaha xatir!
Kətmən vuran Vətən qızı,
Vurginən Allaha xatir!

Sevgi odu düşən könlüm,
Sevginən Allaha xatir!
Gəl Allahın özünü də
Sevginən Allaha xatir!

Könlümdən misralar qopdu,
Qopdu tək Allaha xatir!
Sözlərə məhəbbət hopdu,
Hopdu tək Allaha xatir!

17.04.2003.

KİMDİR

On səkkiz min aləm bərqərar oldu,
«Ol» deyib xilqəti yaradan kimdir?!
Göylər «Sübhənallah» zikriylə doldu,
Onların üstündə göz olan kimdir?!

Göylərin bağrında çıraqlar asan,
Direksiz yaradıb gəlməsin asan,
Gözünün önündə sərgilər açan,
Bu qurğu-büsatı yaradan kimdir?!

Necə ilham verib bal arısına,
Qulaq as bülbülün xoş nəvasına,
Quşların zikrinə, həmd-duasına,
Yeganə ünvanlı o Sübhan kimdir?!

Ürəklər döyünər Onun eşqinə,
Nuru düşməyibmi sənin qəlbinə?
Ən yaxşısı qıfıl as sən dilinə,
Dilini hərlədən o Yəzdan kimdir?!

Ondan almadımı ağlın nurunu,
Nur verdi ki, biz də tanıyaq onu.
Sidq ilə Fərzalı saxlar yolunu,
Bu yolu tanıdan o Pünhan kimdir?!

YAZAN TANRI QƏLƏMİ

Yazan Tanrı qələmi,
Qoşa sevinclə qəmi.
Əvvəl zil qaranlıqdır,
Sonra gəlir sübh dəmi.

Baxtın yatsa inləmə,
Cəfanı artırarsan.
Dərdi dərdsizə demə,
Adını batırarsan.

Üzüm cecəsi kimi
Sıxılsan da, sınma sən.
Əjdahadan pay umsan,
Nanəcibdən umma sən.

İbrət al, düşünginən,
Nədir Tanrı hikməti?!
Fərzalı, Ona güvən,
Diriykən al rəhməti.

KÖNÜL, İMAN AMANATI

İman Allahın nurudu,
Şirki götürməz, durudu,
Yunisi suda qorudu,
Könül, iman amanatı!
Könül, iman amanatı!

Paxıllıq könülə yükdü,
Sadə ol, sadə böyükdü –
Atalar demiş öyüddü.
Könül, iman amanatı!
Könül, iman amanatı!

Qoy düşünsün qeybət edən,
İblisin tərkində gedən,
Ölüm haqlar səni birdən,
Könül, iman amanatı!
Könül, iman amanatı!

İmansız insan daş olar,
İblisə dost, sirdaş olar,
Cəhənnəmdə yoldaş olar.
Könül, iman amanatı!
Könül, iman amanatı!

Vətən göyləri dumandı,
Didişməyək biz, amandı,
Ümidimiz bir imandı.
Könül, iman amanatı!
Könül, iman amanatı!

Mömin öldü eldən getdi,
Sona uçub göldən getdi,
Vətənim də əldən getdi.
Könül, iman amanatı!
Könül, iman amanatı!

AĞLAR

(Kərbəla şəhidlərinə)

Səhrada müsibətə
Ürək ağlar, dil ağlar.
Qəbir-qəbir qalan el[1]
Ərşə çıxan zil ağlar.

Göyçə adlı nakamın
Sazındakı tel ağlar.
Dərələyəz, Ağbaba
Sinəsində yel ağlar.

---

[1] *Bu ifadə şair Eldar İsmayıla məxsusdur.*

Haqqsevər könüllərə
Düşüb elə köz, ağlar.
Hələ düz məhşərəcən
Neçə-neçə göz ağlar.

Şəhriyar qələm çaldı,
Gördü qələm, söz ağlar.
Nizədə gedən başa
Qəlbə demə, döz, ağlar.

Yerdə, göydə məxluqat,
Mələk ağlar, cin ağlar.
Qanıyla can verdiyi
İslam adlı din ağlar.

Körpə Əsğər qətlinə
Neçə igid, ər ağlar.
Sinəsi dağlı ana
Oğlundan betər ağlar.

Yazda güllər açılar,
Güllərdə ətir ağlar.
Bu dərdi bölüşəndə
Dözməyib sətir ağlar.

İgid dünyadan getsə,
El deyib ağı, ağlar.
Bu bir dağdır, Fərzalı,
Dost nədir, yağı ağlar.

06.XII. 2001.
(Ramazan ayı)

QƏLBİNİN GÖZÜYLƏ BAX

Tanrının sərgisinə
Əqlinin gözüylə bax.
Əqlinin gözü birdir,
Qəlbinin gözü min bir,
Qəlbinin gözüylə bax.

Həqiqətin odunu
Qəlbində yandırmasan,
Qəlb gözün açılarmı?
Həqiqəti göylərdə,
Yerlərdə axtarma sən.
İçində axtargınan.
İçində bir köz vardır,
Həqiqətin közüdür.
O közü qurdalasan,
O közü alışdırsan,
Həqiqətin özüdür,
Həqiqətin gözüdür –
Hər şeyə baxanda sən
O gözlə bax içindən.

01.01.2004.

ONA QOVUŞACAQSAN

Qurtul, fanidən qurtul,
Təkcə Tanrıya vurul,
Onun eşqiylə durul,
Ona qovuşacaqsan...

Bir qəlbin var ver Ona,
O olsun sənə sona,
Ömür yetəndə sona
Ona qovuşacaqsan...

Kimin imanı vardır
O könüldə bahardır.
Dünya möminə dardır,
Ona qovuşacaqsan...

Ruhun qəribdir burda,
Tələsir doğma yurda.
Cismin də qalxar Surda,
Ona qovuşacaqsan...

SİNƏMDƏ BİR ÜRƏK VAR

Sinəmdə bir ürək var,
O da ki Haqqa bağlı.
Dünya, sənə vermərəm,
Töksən də dillər yağlı.

Sən elə bir gözəlsən,
Qəlbində vəfa yoxdur.
Səni sevən xəstədir,
Ona da dəva yoxdur.

Əlim varından boşdur,
Ona bir tamırım yox.
Küt gedən kündəmmi var? –
Mənim ki xamırım yox.

Ölüm gəlsə nə qorxu,
İtirməyə nəyim var?
Ruhun soyunacağı
Bir dənə köynəyim var.

Ölüm məni qucanda
Fani bir şeyi alar.
Mənəsə bu görüşdən
Əbədi həyat qalar.

25.XII. 2001.

XƏBƏRİN VARMI
Dostum Kamilə

Qalaq-qalaq kitab oxuyan qardaş,
Ürək kitabından xəbərin varmı?!
Ürəkdir bizlərə ən yaxın sirdaş,
Ürək kitabından xəbərin varmı?!

Hər şeydən incədir, duyan ürəkdir,
Bir dəli sevgiyə uyan ürəkdir.
Qəmlər hücum çəksə həyan ürəkdir,
Ürək kitabından xəbərin varmı?!

Oxuya bilməzsən bir səhfəsini,
Notlar verə bilməz təranəsini.
Dinləynən, sən Allah, onun səsini,
Ürək kitabından xəbərin varmı?!

Əqlin gözü birsə, onun gözü min,
Ürək dinsə nə danış sən, nə də din.
Odur camalını görən Rəbbimin,
Ürək kitabından xəbərin varmı?!

Odur sinəmizdə Haqqın nişanı,
Nə itirsək, itirməyək imanı.
Qoy desin Fərzalı gəldi zamanı –
Ürək kitabından xəbərin varmı?!

NƏDƏNDİ

İtiyini insan elə axtarar,
Mənlik itər axtarmayar nədəndi?!
Dünyaya qarnının gözüylə baxar,
Guya bizi insan edən bədəndi.

Haradandır, harayadır karvanım?
Haradadır, gəlib keçir dövranım?

Arx. 233405

Dinim İslam, Həzrət Əli imamım,
Mövlam Cənnət-Cəhənnəmi böləndi.

Səni tapan nə itirib, İlahi,
Qəlb ağacım bar gətirib, İlahi.
Dərgahına üz gətirib, İlahi,
Fərzalıdı, əfv istəyən bəndəndi.

2003

DİLƏRƏMMİ MƏN

Çilli Məşədi Seyid Əli ağanın xatirəsinə

Dedim xatirəni illərə salım,
Əli ocağını dillərə salım,
Cəddinə güvənib bir qələm çalım,
Yoxsa ki bu yükə girərəmmi mən?!

Görmədim üzünü aşkar, yuxuda,
Qəlbimə salıbdır o Böyük Xuda.
Taleyin gözəlcə payıdır bu da,
Bunu bir təsadüf bilərəmmi mən?!

Ruhum hər gün gedir ziyarətinə,
Çağırram cəddini düşsəm çətinə.
Əlim uzanıqlı daş künbəzinə,
Gözümdən yaş gəlsə, silərəmmi mən?!

Həyanı kim olar təpənin, dağın?
Gözündən kim öpər Pəribulağın,
Çəkər həsrətini neçə yığnağın,
Can Ağa, ürəkdən gülərəmmi mən?!

İndi ağı deyir yeli Göyçənin,
Qəbir-qəbir qaldı eli Göyçənin,
Bir də dikələrmi beli Göyçənin?!
Bir də görüşünə gələrəmmi mən?!

Yenə çatılarmı Novruz tonqalı?!
Atarmı üzündən dağlar məlalı?!
El-obayla xoşbəxt olar Fərzalı –
Tanrımdan başqa şey dilərəmmi mən?!

YA SEYİD ƏLİ AĞA

Tarixə bir sualdır
Zəhranın gizli qəbri.
Göstərdi nə amaldır
Bəşərə Əli səbri.
Dağ dözməzdi bu dağa,
Ya Seyid Əli ağa!

Övladları səpildi
Dünyanın düzlərinə.
Ağı-zəhər qatıldı
Gecə-gündüzlərinə.
Qəlb sıxılır o çağa,
Ya Seyid Əli ağa!

Ümid ocağı olduz,
Hər obada, hər eldə.
Mərhəmət, məhəbbətiz,
Gəzdi dodaqda, dildə.
Çağırdı kasıb, ağa –
Ya Seyid Əli ağa!

Səxavət, dəyanətdə
Hamıdan irəlisiz.
Ələsgər gözəl deyib
Həqiqət gözəlisiz.
Bənzərsiz uca dağa,
Ya Seyid Əli ağa!

Nəbadə haram tikə
Qatasan halalına.
«Oyan Əli çəkilər»

Bil onda ocağına-
Səslədiz düz ilqara,
Ya Seyid Əli ağa!

Göyçədə Siz idiniz
Haqq gəzənin həyanı.
Həqiqətin yolunda
Qurban dediniz canı.
Zinətdiz ötən çağa,
Ya Seyid Əli ağa!

AĞA

Qəbrin dustaqdır gavurda,
Ruhun keşikçidir yurda.
Gör bir qərar tutduq harda?
Önündə xəcalətik, Ağa,
Bağışla gəl bizi, Ağa.

Yurdlarımız yağmalandı,
Ocaqlar yaman talandı.
Namus ləkəsi qalandı,
Suyla bu yuyulmaz, Ağa,
Tarixdən pozulmaz, Ağa.

Xocalı, Göyçə çağırır,
Qız-gəlin əsir, çağırır,
Xətai, Babək çağırır,
Millət intizardı, Ağa,
Könüllər qübardı, Ağa.

Qeyrətimiz korşalmasın,
Təpərimiz azalmasın,
Qisas məhşərə qalmasın!
Bizə təpər gərək, Ağa,
Cəddin olsun kömək, Ağa.

SƏNİN

Qəlbin döyünürdü Allah eşqinə,
Dərdlərə dərmandı ocağın sənin.
İndi küskünsənmi, Ağa, elinə,
Nə vaxtdı olmuruq qonağın sənin.

Göyçə boyu alırdılar sorağın,
Toy-bayramdı hara düşsə ayağın,
Hanı Ələsgərə o mehman çağın?
Hanı göyçək oban, oymağın sənin?

Dünya qoy azacıq bassın səbrini,
Türk oğlu vuracaq qəti zərbini.
Həsrətlə qucacaq yenə qəbrini,
Ruhuna əyandı o çağın sənin.

Həyatı mənalı başa vuraydım,
Haqqın sadiq bəndəsindən olaydım.
Baş qoyuban məhşərədək yataydım,
Harada qərardır ayağın sənin.

Kədərlə yüklənib dünya şələsi,
Kədərlə qol-boyun oğuz ölkəsi.
Nə ki Fərzalının gəlir nəfəsi,
Sızladar könlünü fərağın sənin.

II HİSSƏ



BU GÜMANDADI

İnsandan insanlıq – budur umacaq,
Bəşər gör nə vaxtdı bu gümandadı.
Təbəssüm paylayaq biz qucaq-qucaq,
Neçə dərdli könül bu gümandadı.

Qoy sevgi odunda bişsin ürəklər,
Qoy Haqqdan tutulsun gözəl diləklər.
İlim-ilim itsin hiylə, kələklər,
Mənim Zeynəb nənəm bu gümandadı.

Qonşular araya çəkirlər barı,
Könüllər aralı düşməsin barı.
İnsandır insanın hər an simsarı,
Balaca Orxan da bu gümandadı.

Alçaq, nanəcibdən pay umulmasın,
Gözlərimiz haqqa qoy yumulmasın.
Mərhəmət, məhəbbət unudulmasın,
Haqqsevər könüllər bu gümandadı.

Bazardan sürülsün qeybətlə yalan,
Xəbərçi qəlblərə salmasın talan.
Fərzalı, söz dedin könüllər alan,
Xətrinə dəyməsin, bu gümandadı.

23 dekabr 2001

BİRLƏŞDİRMİŞƏM

Mənim könül dünyam dünyadan böyük,
Ona bu dünyanı yerləşdirmişəm.
Adəm övladları qan tökürdülər,
Hamını könlümdə birləşdirmişəm.

Məhəbbət dilində danışır hər kəs,
İnsanlar insanlıq dinindədirlər.
Hələ çoxlarına yer var könlümdə,
Onlar ataların belindədirlər.

İNSAN VAR Kİ

İnsan var ki, qardaşım,
Yer-göy də qarğışlıdır.
Üzünə tüpürərlər,
Deyər: yaz yağışıdır.

İnsan var ki sözüylə
Otuz kənd qarışdırar.
Neçəsinin qəlbində
Kin-qəzəb alışdırar.

İnsan var ki elə bil
Cənnətdən bir mələkdir.
İşi – ehsan eyləmək,
Könül sevindirməkdir.

İnsan var ki dünyaya
Fəxrdir, yaraşıqdır.
Qəlbi Tanrıya bağlı,
Yalnız Ona aşiqdir.

Fəzi, insanlar haqda
Burda saxla sən bəhsi,
De, mövlamız Əlidən –
Oydu ədalət səsi.

2002

NƏ QAZANDIQ, NƏ İTİRDİK BU İLDƏ

Göz açmağa macal verməyir illər,
Tale sazın çalır, bəm ilə zildə.
Hər qazancda bir itki var – deyirlər,
Nə qazandıq, nə itirdik bu ildə?

Dünya bir Günəşin umudunadı,
Zamana yerində o zamanadı.
Umu-küsü yenə biz insanadı,
Nə qazandıq, nə itirdik bu ildə?

Gəldi-gedərinə uyub dünyanın,
Sinəsinə dağ çəkdikmi vicdanın?
Qədrini bildikmi hər ötən anın?
Nə qazandıq, nə itirdik bu ildə?

Çoxmu könülləri etdik ziyarət?
Mələklər verdimi bizə bəşarət?
İnsan adlanmağa varmı bəraət?
Nə qazandıq, nə itirdik bu ildə?

Neçə büdrəyənə biz əl uzatdıq,
Dara düşənlərin hayına çatdıq,
Küsülü qəlblərə körpü yaratdıq,
Nə qazandıq, nə itirdik bu ildə?

Fərzalı dünyanın fikrinə dalıb,
Şər meydan sulayır, xeyir azalıb.
Mələklər göz qoyub qələmə alıb,
Nə qazandıq, nə itirdik bu ildə?

26. XII. 2001

OLSUN

(Qonşumuz Marizə bacıya ad günü münasibətilə)

Hay etsən yüyürüb çatar hayına,
Qonaq edər biş-düşünə, çayına,
Xudaya, min şükür, qonşu payına,
Belə qonşu görüm daim var olsun!
İstərəm qəlbində tək bahar olsun!

Qayğısı başından aşsa da hər an,
Qonşunu heç vədə çıxarmaz yaddan,
Yuxa ürək verib Qadir Yaradan,
Həyat bağçasında gözəl bar olsun!
Qohum-qardaş ona havadar olsun!

Bir sınıq qəlblidən danışsan ona,
Bürünər bir anda çənə, dumana,
Kömək üçün düşər min cür gümana,
İstəməz bir insan eldə xar olsun!
Həyat yollarında çovğun, qar olsun!

Vüsaləylə gəlib həyat baharı,
Babək, Bəbiş-onun şirin nübarı.
Mübarəkdir gözəl ömrün tən yarı!
Gen düşən taledən qoy qübar olsun!
Nəvələr düzülsün bir nübar olsun!

Hal bilən insandır başımız tacı,
Dərdləşsən bir anda çəkilər acı,
Bax, belə qonşudur Marizə bacı!
Dua et, Fərzalı, Tanrı yar olsun!
Öz yarı Sakitlə bəxtiyar olsun!

28-29 dekabr, 2001

VARDIR

Bir şahdır qızılgül güllər içində,
Ətri gözəldisə tikanı vardır.
Şadlıq da gizlənib kədər içində,
Əzabın dözüm tək dərmanı vardır.

Tutubmu qəlbinin gözünü pərdə?
Bir düşün, şəfa var hətta zəhərdə.
Sınaq yaranıbdır kişiyə, mərdə,
Rəbbimin əzəldən fərmanı vardır.

Hamını eynicə dəryazla biçir,
Deməyin ki, şahı, gədanı seçir.
Bilsə də bu yolu məxluqat keçir,
İnsanın ölümə gümanı vardır.

Ovuclar yumulu gətirir Allah,
Gedəndə açılır çəkirik bir ah.
Köhnə dəyirmandır bu dünya mətah,
Üyüdər, Fərzalı, zamanı vardır.

HƏRƏ BİR ÖMÜRDÜR YAŞAYIR, QARDAŞ

(Dostum Etibar Hüseynova)

Hər kəsin taleyi bir tapmacadır,
Hərə bir ömürdür yaşayır, qardaş.
Qayğılar heç zaman bitib-tükənmir,
İnsan ömrü boyu daşıyır, qardaş.

Ürəyi işıqdan məhrum gədanın
Ədalı sözündən baltalanırıq.
Haqq deyib bağırsaq var gücümüzlə,
Nadanlar əlində şaqqalanırıq.

Saxta ürəklərin, şüşə gözlərin,
Soyuq baxışları üşüdür bizi.
Dünya dəyirmandır - öz işindədir,
Tökülən dən kimi üyüdür bizi.

Bəzən də görürük şirin nəvaziş,
Dünya gözümüzdə nura bələnir.
Ruha qanad verir, ruha can verir,
Bir ilıq təbəssüm, bir isti hənir.

Əməli gözəlin, sözü gözəlin
Qəlbində kainat yerləşir, qardaş.
Mayası saflıqdan yoğrulanların
Gözündə yer-göylə birləşir, qardaş.

1994

NƏ XOŞDUR, ALLAH

Qəlbləri nur ilə dolu kəslərin
Arasında olmaq nə xoşdur, Allah!
Mənə doğmadan da doğma kəslərin,
Sırasında olmaq nə xoşdur, Allah!

Dünyaya gələnlər bir anlıq qalır,
İnsan gəlib keçir, insanlıq qalır,
Dünya sirrin vermir, qaranlıq qalır,
Səni ki tapmışıq, nə xoşdur, Allah!

1994

MÜBARƏK İLLƏRİN, QARDAŞ

(Dostum Etibara)

Gözəl payısan fələyin,
Kənddə bələndi bələyin.
Burda fırlanır ələyin,
Mübarək illərin, qardaş!

Hələ uzaqdadır finiş,
Həyat yoxuş, həyat eniş.
Gözəl deyir tanış-biliş,
Mübarək illərin, qardaş!

Sığal çəkdin metrolara,
Bəzək vurdun arkalara,
Bir örnəksən ustalara,
Mübarək illərin, qardaş!

Heyran qoydun təpərinlə,
Həyatda çox zəfərinlə,
Dil açdı daşlar əlinlə,
Mübarək illərin, qardaş!

Səsin gəldi cəbhələrdən,
Qorxmadın sən qəlpələrdən.
Öndə oldun hər nəfərdən,
Mübarək illərin, qardaş!

Qəlbinə salma illəri,
Vida eyləyən telləri.
Bekar qoyma sən əlləri,
Mübarək illərin, qardaş!

Bərk gedir atı zamanın,
Hökmü vardır hər bir anın.
Neyləyək, sağ olsun canın,
Mübarək illərin, qardaş!

HARASINDADI

(Xalisə xanıma)

A vətən balası, a əziz bacım,
Bu kədər qəlbinin harasındadı?
Göylərdən oxudum tale kitabın,
Adın nisgillilər arasındadı.

Oxuyurdun, yandırırdı, yaxırdı,
Ürəyimdən gözümə yaş axırdı.
Uzaqlardan uşaqlığım baxırdı,
Sızıltı taleyin yarasındadı.

Bu ağıydı paralanmış Vətənə,
Övladından aralanmış Vətənə,
Sinəsindən yaralanmış Vətənə,
İzi gözlərinin qarasındadı.

Bir diləyim vardır Qadir Allahdan,
Tez qutarsın səni qubardan-ahdan.
Xatırlarsan qardaşını sən gahdan,
Görəsən, dünyanın harasındadı?

27 dekabr 2001.

III HİSSƏ

QINA

Dünya aldatmadı, özün aldandın,
Dünyanı qınama, özünü qına.
Özün onun ətəyindən sallandın,
Haqqı görəmməyən gözünü qına.

Bu nə ticarətdir, bu nə bazardır?
Aldığın rütbədir, satdığın ardır.
Namus da, şərəf də səndən bezardır,
İstəyirsən bunda yüzünü qına.

Bilmirsənmi «Siccin» adlı kitab var?
Əməllər yazılır, çünki hesab var.
Atəşə dözməyə səndə nə tab var?
Qoy desin Fərzalı – sözünü qına.

İyun 2002

ANILACAQDIR

Elə can atırsan şöhrətə, şana,
Unutmusan nədi borclusan cana?
Tədarükün varmı sənin o yana,
Birdən ölüm zəngi çalınacaqdır.

Sənin döy yığdığın o sərvət, o mal,
Harama əzab var, halala sual.
Pak qəlbə, əmələ təkcə yox zaval,
Yoxsa nə verilib alınacaqdır.

Dünən keçib getdi, gələcək xəyal,
Bu günsə qənimət açılıb iqbal.
Fərzalı, Rəbbini çalış razı sal,
Köçsən də xatirən anılacaqdır.

UTANMAYASAN

Zamanı qınama, zaman o zaman,
İçimizdən qalxır yaxşıyla yaman.
Oğulsan, çirkabda saxla sən iman,
Çalış ki, çirkaba bulanmayasan.

Neylirsən dünyanın adı, dadını?
Guya tanımırsan onun zatını?
Dözümlə noxtala arzu atını,
Zillət çalasına tullanmayasan.

Fərzalı, çaşma gəl, yolunu tanı,
Unutma Ələstdə[1] əhdi, peymanı.
Əmanət verilən bu şirin canı,
Təhvil vədəsində utanmayasan.

OLSUN

Qış gəldi, neyləyək, çovğun-qar olsun,
Qəlbdəsə iman cücərsin bahar olsun.

Bircə təbəssüm belə səadətdir,
Bol-bol paylayana Tanrım yar olsun.

Kimisinin qəlbi dünyadan geniş,
Kimisi çalışır dünya tar olsun.

Diltərpətməz, yankeçən insan da var,
Salamverməz xəsislərə ar olsun.

Milçək təki bulandırar könülü,
Nadan susammırsa, aqil kar olsun.

El qaldırsa başın göylərə çatar,
Elə xor baxanlar, görüm xar olsun.

[1] *Ələst aləmi ruhlar aləmidir.*

Qəmə sevinc batıb, sevincəsə qəm,
Dünya qəmə dəyməz, sevgi var olsun.

Qorxu yoxdur nə Sıratdan, Mizandan,
Təki mövlam Əli havadar olsun.

Fərzalı, könlünü Haqqa bağla sən,
Hər şey fani, O qoy sənə yar olsun.

YAZIQ

Bircə yol nəfsinə öyüd verməyən,
Ağılı şəhvətdən solana yazıq.
Nəfsin cilovunu Şeytana verib,
Tanrıdan mərhəmət umana yazıq.

Dünya tor qurubdur insan oğluna,
Tamahdan bu tora düşənə yazıq.
Min bir rəzalətlə taxta yüksəlib,
Ordan gumbultuyla düşənə yazıq.

LƏNGİMƏYİR

Dünyada davalar çox,
Gah başlanır, gah sönür.
Neçə-neçə gündüzlər,
Bir an zülmətə dönür.

İçimdəki davasa
Bir an da səngiməyir.
Nəfsim ram olmayanda
Şeytan da ləngiməyir.

DÜŞƏR

Qəlbimiz ümman kimidir,
O da haldan-hala düşər.
Əvvəl saf aynaya bənzər,
Günahlardan qara düşər.

Yerin soyuq nəfəsini
Qızdırmaq bahara düşər.
Qəlbi qəlblər isitməsə,
Yayda belə qara düşər.

2003

GEDİR

Uzun ömür arzulama,
Yarısı yatmağa gedir.
Fani mətahlar dalınca
Başı qatmağa gedir.

Müftə çatsa dünya malı,
Bəyəm qalırmı, Fərzalı?
Bəs nədən hələ çoxları
Vicdanı satmağa gedir?

ÇƏKƏR

Hikmətə bir bax ki, eyni çiçəkdən,
İlan zəhər çəkər, arı bal çəkər.
İbrət al gördüyün hər nişanədən,
Rəbbimiz bununla bir misal çəkər.

Anlayana bircə kəlmə dastandır,
Anlamaza ha çalışnan, ha qandır.
Uzaq dur sən bədəsildən amandır,
Qədrini biləmməz kökünə çəkər.

Haqq ağacı daşlıqda da qurumaz,
Haqqa sarı gedən heç vaxt yorulmaz.
Fərzalı, demə ki, bu su durulmaz,
Ağam qiyam edib bir əncam çəkər.

27-28 oktyabr, 2003
(Ramazan ayı)

SEVİNCİMİ BÖL, QARDAŞIM

Günahı atırıq baxtın boynuna,
Zamanın boynuna, vaxtın boynuna,
Gah da hökümətin, taxtın boynuna.
Könülləri bağlayan
Bağlar qırılıbsa,
Buna baxt neyləsin?
Vaxt neyləsin?
Taxt neyləsin?
Gəl, qardaşım,
Bir halımı
Bil, qardaşım.
Dərya qədər dərdim olsa,
Bir damlasın sənə qıymam.
Sevincimi böl, qardaşım!
Sevincimi böl, qardaşım!

01.01.2004.

İNAM ARZU DOĞURUR

İnam arzu doğurur,
Arzu bizi yaşadır.
Arzular dürlü-dürlü,
Şəkər dadır, bal dadır.

Bir arzuya çatanda
Digər arzu dalınca
Qanadlanıb uçuruq.
Çata bilməyəndəsə,
Xəyalları qucuruq.

Əgər arzu tükəndi,
Demək, həyat bitəndi.
Bu da belə naxışdır,
Çinlilərdə qarğışdır:
Ən böyük niyyətinə
Tez çatmağı diləmək.
Fəzi, məna tanışdır:
Vaxtsız ölüm diləmək!

GEDƏR

Ehtiyac sıxanda təbəssüm eylə,
Aləmə yayarsan abrın da gedər.
Yağış tək yağanda bəla oxları,
Dözüm göstərməsən tabın da gedər.

Dili şirindisə vədi yalandır,
Dünya nə veribsə geri alandır.
Nə şöhrət qalandır, nə var qalandır,
Yaddaşdan silinib adın da gedər.

Vüqardır kişinin əsil zinəti,
Sızlayıb itirmə sən ləyaqəti.
Fərzalı, içəndə ölüm şərbəti,
Canından ağrın da, acın da gedər.

BİRİ RƏHMƏTLİKDİR, BİRİ LƏNƏTLİK

Bəhluldan sordular: haradan belə?
Ölü basdırmaqdan gəlirəm – dedi.
Birini basdırdıq, ikisi qaldı,
Ay Bəhlul, mənası qaranlıq qaldı.

-Basdırdıq bədəni-fani olanı,
Xeyiri-şərisə burda qalanı.
Adıyla yanaşı gedər həmşəlik
Biri rəhmətlikdir, biri lənətlik.

01.01.2004.

TƏMSİL

Şikayət yuxarı üst-üstə getdi,
Nəhayət, yerini itirdi dovşan.
Dedilər ki, kadrı itirmək olmaz,
Kələmə keşikçi qoyuldu dovşan.

ÖLÜM ƏBƏDİYYƏTDİR

Hər şeyin öz əksi var:
Acının əksi şirin,
Dayazın əksi dərin.
Həyatın əksi ölüm.
Ölümün əksi, səncə,
Həyat deyilmi, gülüm?!
İkisi qovuşuqdur:
Həyatdan keçən ölüm,
Ölümdən keçən həyat.
Ölümün o tayında
Ölümsüzlük, bir büsat.
Fərzalı, həqiqətdir:
Ölüm əbədiyyətdir!

31.XIII. 2003.

IV HİSSƏ

BAĞIŞLA OĞLUNU

Bağışla oğlunu, a doğma Cilim,
İtmişik qoynundan biz ilim-ilim.
İzin ver, sən Allah, yuxuna girim,
Heç olmasa, biz yuxuda görüşək,
Ana-bala kimi dərdi bölüşək.

Hər kəsin Vətəni özünə şirin,
Könlünün sevdiyi gözünə şirin,
Qoy qoyum başımı dizinə şirin,
Heç olmasa, biz yuxuda görüşək,
Ana-bala kimi dərdi bölüşək.

Xırmana çatmamış quzu dəstəsi,
Kəndi bürüyərdi məyhəməy səsi.
Qulağımdan getməz «Uzundərə»si,
Heç olmasa, biz yuxuda görüşək,
Ana-bala kimi dərdi bölüşək.

Sahibsiz qəbirlər yola boylanar,
Bir hənir gəlməsə, daşlar odlanar.
Vədə çatar, ruhum gəlib dolanar,
Heç olmasa, biz yuxuda görüşək,
Ana-bala kimi dərdi bölüşək.

ƏLVİDA

Şux sinəndə sarmı şənlik edəcək?
Dağ ürəkdə məhşərəcən gedəcək.
Məzarları kim ziyarət edəcək?
Qəbir şehi, həyan durnan, əlvida,
Dağlar mehi, sığal vurnan, əlvida.

Yadımdadı o küt gedən kündələr,
Can-can deyib yaxma verən nənələr,
Sac asanda yığışardı nəvələr,
Ocaq daşı, təndirimiz, əlvida,
Daha gəlməz hənirimiz, əlvida.

Daha bir də qara zurna çalınmaz,
Sonaları baxışlardan allanmaz,
Qara teldən heç biri də sallanmaz,
Qara bulaq, yığnaq yeri, əlvida,
Daha olduq qınaq yeri, əlvida.

Xəmirimiz halallıqla yoğruldu,
Könlüm səndə durulduqca duruldu,
Yığvala bax, köçmək zəngi vuruldu,
Anam məktəb, canım məktəb, əlvida,
Sənə bağlı şirin anım, əlvida.

Xınayaxdı, paltarbiçdi necoldu?
Qapıpusma, eh, sulaşma necoldu?
Hayıf, bizim ayılmamız gec oldu...
Sarıqaya, Danadağı, əlvida,
İndi olduz sinədağı, əlvida.

Xırmanımız bir andaca sovruldu,
İlan çalıb, çalacaqdır – doğruldu.
Zəki, Eldar sətir-sətir qovruldu,
Fərzalının şöhrət-şanı, əlvida,
Gedən cismi, qalan canı, əlvida.

GÖYÇƏM

Açılıb qan verir o köhnə yaran,
Qoy məlhəm göndərsin ulu Savalan.
Qalxsın Ərdəbildən Xətai balan,
Parlasın qılıncı yenə də, Göyçəm!

Kükrəsin bədöylər, coşsun ərənlər,
Yenə başçı olsun Uzun Həsənlər.
Qədrini canından əziz bilənlər,
Sinəsin qalxana çevirsin, Göyçəm!

Keçib qərinələr Ağ Aşıq qalı,
Ozan sənətinin o Rüstəm-Zalı.
Dədə Alı, Ələsgəri, Abdalı,
Kimlərə tapşırıb gəlirik, Göyçəm!

Ruhu hönkürməzmi Dədəm Qorqudun,
Qaynar bir bulaqdın, kökdən qurudun.
Pərişan günəşin, ağlar buludun,
Saç yolub matəmin saxlayır, Göyçəm!

Qəlbimdə iz qoyub köhnə yaralar,
Köksümdə boy atıb dərddən qalalar.
Elə fəryad edib səni haraylar,
Bu sınıq könlümün telləri, Göyçəm!

TORPAĞIN ƏTRİ

(mənsur bir şer duyğularımı tərpətdi)

Burda tanış mənə hər çiçək, hər gül,
Görüb lap uzaqdan pıçıldaşırlar.
Qonur dodaqlara xəfif təbəssüm,
Duyuram mənimlə salamlaşırlar.

Dolaşırlar qəsdən ayağıma ki,
Qoxlayıb sonra da taxım sinəmə.
Necə kövrəlməyim bu nəvazişdən,
İlıq bir hərarət axır qəlbimə.

Hələ heç bir yanda dağ-daşın ətri,
Belə duyğuları tərpətməyibdir.
Hər soyuq baxışdan qəlb üşüyəndə,
Qızdırıb bu odla isitməyibdir.

«Vətənə gələndə imanə gəldim»,
Sən demə, bu kəlam boş yaranmayıb.
Quş da yuvasından perik düşəndə,
Qəmgin-qəmgin ötüb, heç şadlanmayıb.

Götürüb əlimə bir ovuc torpaq,
Səpirəm səmana, səpirəm, Vətən!
Onun ətrini mən bir məlhəm kimi,
Çəkirəm sinəmə, çəkirəm, Vətən!

YETİŞDİ

(Qonşumuz Saxrəddinə)

Gəncədən öz yarıyla
Əziz qonşum yetişdi.
Kəndimin doğma ətri
Düz burnuma yetişdi.

Qürurdan ucalaraq
Ürəyim dağa döndü.
Yel aparsın Göyçəyə
Könlüm yarpağa döndü.

Dünya da gözlərimdə
Neçə yaş cavanlaşdı.
Fəzi adlı bir uşaq
Yenə məktəbə qaçdı.

03.XI.2001

NƏDƏN UTANMADIN, HƏYA ETMƏDİN

(Şer Qarabağ hadisələrindən qabaq Zori Balayanın «Ocaq» kitabına cavab kimi yazılmışdır)

Nədən utanmadın, həya etmədin...
Xalqıma hər cürə qara yaxmaqdan.
Müqəddəs tarixi qanla yazılıb,
Azmı yara alıb sən tək axmaqdan.

Azmı suvaşdılar bir zəli kimi?
Gülüstan torpağım saralıb soldu.
Sünbüllü zəmilər, laləli düzlər,
Ayaqlar altında bir tapdaq oldu.

İkiyə bölündü böyük bir diyar,
Yadlar taleyimi həll etdi mənim.
Təbrizim qəfəsdə yoxdur ixtiyar,
Bu taydan o taya çatmır əllərim.

Sənin bu dəhşətli alçaqlığına
Babam Nizami də türbədən qalxdı.
Nəsimi Hələbdə xəbər tutmamış,
Vaqif Qarabağdan ayağa qalxdı.

Sizin zatınıza yaxşı bələdəm,
Babəki yadlara satan kim oldu?
Əgər tarixçisən gəl bundan danış,
Sunbat tarixə də bir ləkə oldu.

Su içmək kimidir yalanı yazmaq,
Haqq isə nazilər, heç vaxt üzülməz.
Bir kitab deyirsən, milyon kitab da,
Bu ulu tarixə xətt çəkə bilməz.

Həqiqət coşqun bir ümmana bənzər,
Onun qarşısına sən bənd çəkirsən.
Bilmirsən ağılsız hərəkətinlə,
Günəşin üstünə kəmənd çəkirsən.

Vətənimin ətri dünyanı tutmuş,
Azərbaycan Şərqdə bir mayak olmuş.
Onun işığından gözün tutulmuş,
Onunçün kitabın baş-ayaq olmuş.

Ən gözəl guşəmiz Qarabağda siz
Rahatca kef çəkib ömür sürürsüz.
Burnunuzdan gəlsin o əməyimiz,
Qudurub bizlərə niyə hürürsüz?

«Xəzər bizimkidir» - deyirsən, alçaq,
De görək, nə vaxtdan sizlərin olub?
Geniş sinəsində yatıb-uyuyan,
Bakımı sizlərə gözdağı olub?

Bir də sərsəmləmə Kür, Araz – deyə,
Bu yerlər babamın oylağı olub.
Şərik eyləsə də hər bir tikəyə,
Baban nankor çıxıb bir yağı olub.

İlhamı parlamaz hər yazanların,
Bilirəm şerimdə xətalar çoxdur.
Ancaq ifşasında Balayanların,
Zəif misramın da əvəzi yoxdur.

BABACAN

(Yuxuda yazdığım şer)

O yerlər nə yaman döşümə yatdı,
Qəlbimdən dilimə misralar axdı.
Bu da bir yığvaldı, bu da bir baxtdı,
Çevrilib yuxuda üzümə baxdı
Babacan – Göyçəmin şirin növrağı...

V HİSSƏ

MƏHƏBBƏT

Elə ki gizlicə qəlblərə qonar,
Fikirlər dolaşar, baxışlar donar.
Xəyalın coşdurar, ruhunu yonar,
İnsanı təzədən qurar məhəbbət.

Könüllər incəlib sap tək çəkilər,
Yuxular gen düşər ərşə çəkilər.
Bəzən qınanılar üzə çəkilər,
Ancaq deməyin ki, yorar məhəbbət.

Kimi Məcnun edib çöllərə salar,
Ağızdan-ağıza dillərə salar,
Tarixdən-tarixə illərə salar,
Bir dastana dönüb yaşar məhəbbət.

Bişməyən tapılmaz sevgi odunda,
Şıltaqlar mum olar onun qoynunda.
Fərhad şəhid oldu Şirin yolunda,
Fərzalı, əbədi qalar məhəbbət.

ÖPƏRƏM

Heç bilmirəm yerdəyəm, ya hardayam,
Əl uzat gəl Yusif kimi dardayam.
Ay insafsız, görmürsən nə haldayam?
Mənə can gətirən sözdən öpərəm.

Qulac saçlarını oxşayır külək,
Dağıdır telini üzünə tək-tək.
Neyləyim qısqanır sinəmdə ürək,
Küləkdən öpərəm, teldən öpərəm.

Nolar daha az eyləynən nazını,
Sap kimi incəltdin sən Fərzalını.
Qəsdin nədi oynadırsan ağlını?
Bir «hə» desən, ala gözdən öpərəm.

GÖZLƏR DEMİRMİ

Sevirsənmi – deyə sual edirsən,
Qəlbimdən keçəni gözlər demirmi?!
Qəlbimə od vurub naz eyləyirsən,
Qəlbimdən keçəni gözlər demirmi?!

Sevən ürəklərə sözlər nə lazım,
Ürək çırpıntısı sözlər deyilmi?
Sevgilim, sükutu pozmaq nə lazım,
Qəlbimdən keçəni gözlər demirmi?!

Göz-gözə dayanaq, beləcə duraq,
Ürəyin aynası gözlər deyilmi?
Qoy gözlər danışsın, biz isə susaq,
Qəlbimdən keçəni gözlər demirmi?!

GÖZƏL

Hüsnündən utanıb Günəş gizlənər,
Ay da sən yatandan sonra görünər.
Ulduzlar həyadan tərə bürünər,
Üzünü bir kərə göstərsən, gözəl.

OLMUR

(zarafatyana)

Ay kimi üzündən həyalanıram,
Baxmaq günahdısa, baxmamaq olmur.
Dinim əldən gedir, havalanıram,
Cəhənnəm atəşin anmamaq olmur.

Sən tək sərvinazdan Ələsgər yazıb,
Ancaq nə yazıbsa yenə az yazıb.
Gözlərin qəsdindən ağıl da azıb,
Bir dəli sevdaya dalmamaq olmur.

Qorxmursanmı könlüm tufanda qalsın?
Ruhumu gözlərin çəkib aparsın.
Sən Allah, gizləynən gizlində qalsın,
Çaşır, ağlım-huşum özümdə olmur.

Mən özüm deyiləm, indi xəyalam,
Şimşək baxışından çətin sağalam.
Qorxmursanmı səni mən qana salam?
Yeri-yeri, daha tablamaq olmur.

Ay zalım balası, haradan çıxdın?
Haqqa bağlı qəlbə şərikmi çıxdın?
A Şeytanın toru, evimi yıxdın,
Demək ayıbdısa, deməmək olmur.

KÖNÜL VERƏRSƏNMİ

Əhval tutmaq bir savabdır,
Sən halımı bilərsənmi?
Sinəmdə ocaq çatıbsan,
Bir damcı su çilərsənmi?

Vurulmadım ay üzünə,
Nə də ki qara gözünə.
Vuruldum sənin özünə,
Sən də məni üzərsənmi?

Yalan gəlməz heç dilimə,
Ay bağ belə, bostan belə.
Kasıb tələbəyəm hələ,
Varım sevgi, dilərsənmi?

Öyrədirlər hər sənəti,
Öyrədən kim məhəbbəti?
Dilim yox, könlüm xəlvəti,
Deyir-könül verərsənmi?

DİLİM ONÇÜN ŞİRİNLƏŞİB

(Zərnigar xanıma)

Ay dilbilməz, demə nolub,
Könlüm könlünə bənd olub,
Adın dilimdə qənd olub,
Dilim onçün şirinləşib,
Sözüm onçün şirinləşib.

Mən dəli də həlimləşib,
Gözümdə yer-göy birləşib,
Qəlbimdə sultan əyləşib,
Dilim onçün şirinləşib,
Sözüm onçün şirinləşib.

Dildir qəlbin tərcümanı,
Dilə sığmaz eşq tufanı,
Şirin-şirin alır canı,
Dilim onçün şirinləşib,
Sözüm onçün şirinləşib.

VI HİSSƏ

İLAHİ PAYAM

(Anara)

Qalxmışam göylərə ucalıqdayam,
Axı mən əmimin qucağındayam.
Şirinlik məndədir, şirin balayam,
Əmim də deyir ki, İlahi payam.

Qoymuram heç kəsi gecə yatmağa,
Oyun-oyuncaqla başı qatmağa.
Qucaqdan düşürüb beşiyə atmağa,
Nə olsun körpəyəm, gərək sayılam.

Neylərəm bu qədər şirni-mirnini,
Gərək nəfsi boğum, saxlayım dini.
Namaza gətirim atam Fəxini,
İşığa qayılam, haqqa qayılam.

Gözəl bir yoldadır əmim Fərzəli,
O, nəyi buyursa, deyəcəm: bəli.
İnşallah, seçəcəm gözəl əməli,
İnsanda etiqad, səbrə mayılam.

Dekabr, 1999

SALAMLAR ANARA

(Qardaşım oğlu Anara)

Salamlar Anara əziz əmidən,
Qohumdan, qonşudan, hər istəyəndən.
Gərək bağışlaya təb gəlir hərdən,
Yazıram ilhamla nə qopur qəlbdən.

Aparsın şeri bibisi Zərnigar,
Əgər o geciksə, külək aparar.
Bağçamızdan əsib gül də qoparar,
Onun beşiyinə hörmətlə salar.

Açar qucağını geniş məktəblər,
Anar da, inşallah, məktəbə gedər.
Balalar kəklik tək səs-səsə verər,
Baxanda hər kəsin ruhu dincələr.

Yanvar, 2000.

HƏLƏ BİZ BİRİNCİYİK

(Qardaşım oğlu Orxana)

Hələ biz birinciyik,
Məktəbdə bir inciyik.
Boyca çox balacayıq,
Yalnız bundan inciyik.

SİZƏ UĞUR DEYİRİK

Sizə uğur deyirik,
Biz də, on birincilər!
Arxanızca gəlirik,
Biz-qoçaq birincilər.

HƏRƏMİZƏ PAY DÜŞDÜ

(Orxana)

Oxumaq, yazmaq üçün
Biz məktəbə yollandıq.
Güllərdən şirə çəkən
Zəhmətkeş arı kimi
Bilik ilə ballandıq.
Hərəmizə pay düşdü-
Gözəl insan qəlbindən.
Biz hörmətlə öpürük,
Nazımızla oynayan,
Adı Səadət olan
İlk ustadın əlindən.

ÜLVİLİYƏ UCAL SƏN

(Dayınəvəsi Ülviyə)

Böyü, fəxrimiz Ülvi, ülviliyə ucal sən,
Nurlu bir ömür yaşa, mərd kişi tək qocal sən.

Nənələrin sözü tək şirin olsun həyatın,
Körpələrin gözü tək duru olsun həyatın.

Dünyaya vurulma gəl, o, səni də atacaq,
Vəfasız bir gözəldir, vallah, ucuz satacaq.

Əgər sən uyar olsan ucuz şöhrətə, ada,
Ülvi duyğularını onda verərsən bada.

Sidqlə bağla könlünü Uca, Qadir Allaha,
Təmiz qəlb, təmiz əməl-varmı bunlardan baha?!

Halal-hümbət oğul ol bizim azad Vətənə,
Turabla Firuzə də baxıb sevinsin sənə.

Bu Fərzalı əmidən sadəcə nəsihətdir,
Nə vaxtsa əməl etsən, ona böyük hörmətdir.

1-3 dekabr 2001 (Ramazan ayı)

OĞUL

(Qardaşım oğlu Anara)

Qara nöqtə salar günah qəlbinə,
Günahdan qaralan insan qəlbi nə?!
Halallıqdan, təmizlikdən qəlbi nə?!
Səni də ucaya qaldırar, oğul.

Dəyişməz nədir ki, dəyişər hər dəb,
Ötəri şeyləri etmə gəl tələb.
Qoy bəzəyin olsun elm ilə ədəb,
Peyğəmbər yoluyla aparar, oğul.

Yeri deşmək olmaz, dağa da çatmaq,
Yaraşmaz insana yekəlik satmaq.
Məhəbbət, mərhəmət, bir də yaratmaq,
Qəlbini düz Haqqa bağlayar, oğul.

Həyat bir sınaqdır yoxlamaq üçün,
Dünya qızılgüldür qoxlamaq üçün,
Ölüm pusqudadır oxlamaq üçün,
Bir də görərsən ki, o vurar, oğul.

Fərzalı güvənir Şahi-mərdana,
Sidqiylə çağırar cavan, pirana.
Yolumuz düşərsə bir gün o yana,
Atəşdən, əzabdan qurtarar, oğul.

21.XI.2001 (Ramazan ayı)

TANRIM PAY GÖNDƏRİB

Gözəl deyib Gözəllərin Gözəli[1],
«Körpə ətri Cənnət ətridir», - bəli.
Di, durmadan salavat çək, ay Əli,
Gözlər aydın, ay Məhəmməd, Səringül,
Tanrım pay göndərib ətirli bir gül.

Göz açdı dünyaya gözəl bir gündə,
Günəş naz satırdı Xərçəng bürcündə.
Zöhrə Buğadaydı – özcə evində,
Gözlər aydın, ay Məhəmməd, Səringül,
Tanrım pay göndərib ətirli bir gül.

Üstündədir asimanın kölgəsi,
Ev-eşiyi isidibdir nəfəsi.
Ay qohumlar, hanı şükür səcdəsi?!
Gözlər aydın, ay Məhəmməd, Səringül,
Tanrım pay göndərib ətirli bir gül.

Fərzalının Haqqdan vardır diləyi,
Həyayla bəzəsin Sevinc göyçəyi.
Ədəb-mərifəti, başda örpəyi,
Gözlər aydın, ay Məhəmməd, Səringül,
Tanrım pay göndərib ətirli bir gül.

[1] ***Həqiqət gözəli Həzrət Məhəmməd Əleyhissəlama işarədir.***

İKİLİKLƏR

Məhəbbət paylayaq gəl qucaq-qucaq,
Məhəbbət dünyanın xilası ancaq.

* * *

Milçək yara-xora axtarar bizdə,
Eyib axtarmayaq bir-birimizdə.

* * *

Qəlblərin buzunu əritmək üçün,
İçimdən bir günəş doğulmaqdadır.

* * *

Əgər ölüm qorxusu olmasaydı həyatda,
Yaşamağın dadını-duzunu itirərdik.

* * *

Qara nöqtə salar günah qəlbinə,
Günahdan qaralan insan qəlbi, nə?!

* * *

Dünyada qarnını otaran insan,
Milçəkdir çirkabdan-çirkaba qonan.

* * *

Cırıq ayaqqabın dərd deyil, inan,
Onda bəs neyləsin ayaqsız insan?!

* * *

Səcdəni eləyir hərə bir cürə,
Kimisi Allaha, kimisi zərə.

* * *

Əkdiyin şər bumeranq, qarğamaynan fələyi,
Qəlbinin aynasından əssin paklıq küləyi.

* * *

Yaxşılıq dünyanın naxşıdır, qardaş,
Yaxşıyla dünyamız yaxşıdır, qardaş.

* * *

Qanunlar qanunu vicdandır, vicdan,
Otlayan heyvandır vicdanı danan.

* * *

Günah eləyəndə inciyir vicdan,
Onu nəzarətçi qoyub Yaradan.

* * *

Vicdan qəlbimizdə İlahi nurdur,
Xoş halına kimdə vicdan durudur.

* * *

Başqası yolunda min cür tor qurur,
Bilmir ki, özünə badalaq vurur.

* * *

Quşlar cəh-cəh ilə öyər Rəbbini,
Göy də şimşək ilə öyər Rəbbini.

* * *

Böyük bir hikmətdir xoruzun zəngi,
Banlayır – namazın vədəsi gəldi.

* * *

Dünyanın yox, axirətin oğluyam,
Mən saf duyğu, pak niyyətin oğluyam.

* * *

Ruhum azad gəzdi nazü-nemətdən,
Doymadım həyatda bir öyrənməkdən.

* * *

Tədarük eylənən sən axirətə,
Ölüm ilk pillədir əbədiyyətə.

* * *

İnsan ucalığa əzabla çatar,
Qızılgül dərəndə tikan da batar.

* * *

Qəlblərin şəfası Qurandır, Quran,
Ruhların dəvası Qurandır, Quran.

* * *

Mələkdən ucasan, nəfsi saxlasan,
Müdam öz mənindən hesabat alsan.

* * *

Kiminçün həyatda bir çınqıl daşı,
Kiminçün vüqarlı uca dağam mən.

* * *

Allah bəndəsinin haqqını yeyib,
Allahın evinə dolanana bax.

* * *

Şeytana daş atan bəlkə neçəsi,
Elə öz-özünü daşlamayırmı?

* * *

Ənlikli-kirşanlı qarıdır dünya,
Nəfsinə uyanın yarıdır dünya.

* * *

Səhrada ilğımdır uzun arzular,
Nə qədər yüyürsən çata bilməzsən.

* * *

Ömür bir yazıdır qumun üstündə,
Əcəl gəlib silsə, geri dönməzsən.

* * *

Nə eşitsə, söyləyən yalançıdı,
Könlü viran qoyan bir talançıdı.

* * *

Tuş olar daşlara gətirərsə bar,
Yoxsa ki, ağacla kimin işi var?

* * *

Elə ki palıdı yıxılan görər,
Baltalı, baltasız – hamı yüyürər.

BAYATILAR – DÖRDLÜKLƏR

Əzizinəm can gedər,
Cisim gedər, can gedər.
Qalar xeyir-şərimiz,
Adla yanbayan gedər.

Əzizinəm yarımsan,
Sona dilbər, yarımsan.
Ağzında yar deyirsən
Mənim təncə yarımsan.

Dünya tamaşa yeri,
Baxıb da gedəsiyik.
Bəs niyə didişirik
Guya ki, əbədiyik.

Əzizim cana bağlı,
Cismimiz cana bağlı.
«Can» desən cana gəlləm,
Canım bu «cana» bağlı.

Əzizinəm qoparram,
Dəli haray qoparram.
Gül nədir ki, a naz-naz,
Göydən ulduz qoparram.

Bu can canan üçündür,
Canı yanan üçündür.
Giley-güzar, əzizim,
Bir de görüm, neçündür?

Əzizim, ikilik yox,
Sevgidə ikilik yox.
Can canana birləşər,
Vüsalda ikilik yox.

Əzizim keçicidir,
Nə varsa, keçicidir.
Nə sevincə, nə qəmə,
Batmaram, keçicidir.

Dünyanın cəhrəsini,
Əzizim, fırladan var.
Hər şey sapa düzülüb,
Bunu bir yaradan var.

Əzizinəm göz dəyər,
Gözəllərə göz dəyər.
Atmayın söz oxunu,
Könüllərə söz dəyər.

Əzizim nişanədir,
Hər nə var nişanədir.
Qaşlar «ra»dı, gözlər «sad»,
Xaliqdən nişanədir.

Əzizinəm, sərgidir,
Dünya özü sərgidir.
Gör nə çəkib o Nəqqaş,
Üzdə hər nəqş sərgidir.

Əzizim dolaylarda,
İzim var dolaylarda.
Məsləkimdən güc aldım,
Çaşmadım dolaylarda.

Əzizim, kamandadır,
Şər oxu kamandadır.
İblis onu tuşlayıb,
Müxlislər amandadır.

Dostunu tanı, saxla,
Əzizim, canı saxla.
Can da gəldi-gedərdi,
Çalış, imanı saxla.

Əzizim yetim qalar,
Anadan yetim qalar.
Ellər yurddan qopanda,
Dağ-dərə yetim qalar.

Əzizinəm şirindi,
Sevgi yaman şirindi.
Könülə yatan olsa,
Çirkin gözə şirindi.

Sən ayağa buraxsan,
Qarışqa başa çıxar.
Gavura üz verəndə,
Bilmirdik başa çıxar?

Əziziyəm, qar yağar,
Yol-dərəyə qar yağar.
Sevgiyə xəyanəti,
Allah özü qarğayar.

Əzizim ayaq açdı,
Körpəmiz ayaq açdı.
Hələ barışmamışıq,
Olmayıb ayaqaçdı.

Yara sovqat edəcəm,
Mer-meyvələr dəyəndə.
Özümə yer tapmıram,
Qəlbinə mən dəyəndə.

Əziziyəm, dərindir,
Sakit sular dərindir.
Ağır otur, batman gəl,
Desinlər ki, dərindir.

Əzizim sınaqlıdır,
Qaradaş sınaqlıdır.
Sidqinən cəddin çağır,
Ağa çox sınaqlıdır.

Əzizinəm göyçəkdi,
Mənim Göyçəm göyçəkdi.
Hanı o qurğu, büsat,
Yer gizlətdi, göy çəkdi?!

Əzizinəm süzüldü,
Bal da şandan süzüldü.
Yarım elə baxdı ki,
Allah, canım üzüldü.

Əziziyəm, çəkildi,
Vətənə dağ çəkildi.
Təbriz, Göyçə... azdımı?
Qarabağ da çəkildi.

Dağlar başqa dağlar olur,
Duman-çən gəlib qonanda.
Qəlblər dərdli, ağlar olur,
Zorla Vətəndən qopanda.

Əzizinəm qopanda,
Haqq nazilib qopanda.
Yer-göy də ağı deyər,
Ellər yurddan qopanda.

Əzizim tamırım yox,
Mal-pula tamırım yox.
İstəyim bir Cilimdi,
Başqa bir tamırım yox.

Gözündə sonalar gözü,
Yaxşı saxla, gizlə, bulaq.
Üzündə dilbərin üzü,
Həyasını gizlə, bulaq.

Əzizim göz eyləyər,
Sevgilim göz eyləyər.
Paxılın dili yansın,
Bunu da söz eyləyər.

Əzizinəm qardaşdı,
Kəpəz, Murov qardaşdı.
Mənim qəlbim deyir ki,
Göygöl, Göyçə qardaşdı.

Gözəllər yığnağının,
Şahidi qara bulaq.
Sənə söz pıçıldadım,
Sən açdın yara, bulaq.

Əzizinəm ağ alma,
Böyüklərə ağ olma.
Sevgiyə dönük çıxsan,
Ay üz, səni ağ olma.

Əzizim, ucam dağlar,
Sizi bir qucam, dağlar.
Yollar bağlı-bərəli,
Qanad yox uçam, dağlar.

Rəbbinlə xəlvət gecə,
Söhbət et şirin-şirin.
Bala baldan şirinsə,
İmandır ondan şirin.

Əzizinəm üz alma,
Bu qapıdan yol salma.
Səni könlüm tutmayır,
Məni dil-dişə salma.

Sonamın qaşı göyçək,
«Yerlinin qaşı» göyçək.
Kəndimə qurban olum,
Yolunda daşı göyçək.

Kəlmə çıxsa dilindən,
Qoy həmişə düz olsun.
Bir bəladan qorxun yox,
İstəyirsən yüz olsun.

Gədikləri qar alar,
Tale bizi qaralar.
Günah etmə, əzizim,
Sağ ürəyin qaralar.

Yaram üstə yaram var,
Həkim, istəsən qaşı.
Dərdimə məlhəm olar,
Vətənin quru daşı.

Əzizim yalan çıxmaz,
Dilimdən yalan çıxmaz.
Çoxunda etibar yox,
Dərdimə qalan çıxmaz.

Bələ, körpəni bələ,
Onu sevincə bələ.
Qaynananı dindirsən,
Dilin şəkərə bələ.

Əzizim göy çəmənə,
Həsrətəm göy çəmənə.
Duruluğu, saflığı,
Veribdi Göyçə mənə.

Boya-başa yetirdi,
Nə aldı Göyçə məndən?
Mən Göyçədən çıxmışam,
Çıxarmı Göyçə məndən.

Əzizim Gözə səndə,
Neçə iz, Gözə, səndə.
Hanı o qurğu-büsat,
Gəldinmi gözə, sən də.

Şöhrət-şan düşünənin
Əzizinəm eşqi nə?
Fərzalı, sən yarat gəl,
Təkcə Allah eşqinə.

Əzizim Sarıqaya,
Qalaça, Sarıqaya.
Görsəm ürək dözərmi?
Köksündə sarı, qaya.

Nəfsinin toxluğudur,
Başının uca tacı.
Dünya qəlbə şirindir,
Olma sən mal-pul acı.

Əzizim cilası var,
Hər şeyin cilası var.
Qəlb də paslana bilər,
Zikr ilə cilası var.

Mürvət günü necoldu?
O qocaman Gəncədə.
Onda toy edərmişlər,
Neçə yoxsul gəncə də.

Dərd yoğurur insanı,
Ah-uf hara, mərd hara?
Pak saxlaynan imanı,
Günah hara, dərd hara?

Tanrının qonağına,
Deyirdilər qurban can.
Ah, necə mehribandı,
Hər cilliyə Babacan.

Əzizim gülə bənzər,
Dünya bir gülə bənzər.
Növbəylə qoxlayırıq,
Yüz il bir günə bənzər.

Əzizinəm veribdir,
Xudam hər şey veribdir.
Demə yüküm ağırdır,
Ona dözüm veribdir.

Əzizinəm ağlıdır,
Ürək qara-ağlıdır.
İnsanı başa çəkən,
Təkcə onun ağlıdır.

Əzizinəm, həyandı,
Dağ da dağa həyandı.
Gəddinə qurban, Ağa,
Cəddin bizə həyandı.

Əziziyəm saxlayır,
Darda inam saxlayır.
Ağaların xətrinə,
Xudam bizi saxlayır.

Gözəllər şallı gərək,
Qırmızı, allı gərək.
Şuşa alınan kimi
Düz qırx gün yallı gərək.

Əzizim, dayan, gözəl,
Canımı alan gözəl.
Əzrayıl bir yol alır,
Sən isə hər an, gözəl.

Nənələr ağı deyər,
Qaranı, ağı deyər.
Sahibsiz qalan qəbir,
Özünə ağı deyər.

Daha sazım çalmayacaq,
Bəmim qaldı, zilim qaldı.
Şair Eldar düz söyləmiş,
Qəbir-qəbir elim qaldı.

Əziziyəm, günahdır,
Çirkin işlər günahdır.
Göz baxır, mən neyləyim?
Mən də billəm günahdır.

Əzizim düzə gəldik,
Yarımla sözə gəldik.
Nə vaxtdı küsülüyük,
Yoxsa biz gözə gəldik?

Əziziyəm göz-gözə,
Gəl dayanaq göz-gözə.
Nə sən danış, nə də mən,
Qəlblər dinsin göz-gözə.

Qoynunda bəsləndiyim,
Vətən uzaqda qaldı.
Könlümün bir parçası,
Kənddə duzdaqda qaldı.

Əzizinəm hoylayar,
Açıq yara hoylayar.
Xalqa böyüklük satsan,
Uşaq səni hoylayar.

İnsaf eylə gedəndə,
Bircə kərə, hoyla, yar.
Səndən aralı düşsəm,
Köhnə yaram hoylayar.

Əzizinəm hoylunu,
Süpürgünən hoylunu.
Asta, mülayim dindir,
Görsən başı hoylunu.

Əzizim payın olsun,
Xudadan payın olsun.
Dövlət-var keçicidir,
İmandan payın olsun.

Əzizinəm yerinə,
Çatarmı haqq yerinə?
Axar qəlbimin qanı,
Gözümdən yaş yerinə.

Əzizinəm qələmə,
Sarılmışam qələmə.
Yuxuma tez-tez girir,
Bulaq üstə qələmə.

Allaha qurban olum,
Bu da belə yazıdır.
Məni bu hala salan,
Bir şıltağın nazıdır.

Əzizim qovuşuqdur,
Dil-dodaq qovuşuqdur.
İkinci bir həyat var,
Ölümlə qovuşuqdur.

Əzizim o çəmənə,
Həsrətəm göy çəmənə.
Yuxuda biz görüşdük,
İncikdi Göyçə mənə.

Eləmi Gözə səndə,
Gəzəydik, Gözə, səndə.
İyini alammarıq,
Dünyanı gəzəsən də.

Əzizinəm, duzu yox,
Xörəyinin duzu yox.
İnsan duzsuz olmasın,
Bunun başqa üzü yox.

Bağban baxıb sevinər,
Ağaclar gətirəndə.
Demə, burada mənəm,
Yığvalın gətirəndə.

Gavurda mürvətmi var?
Sındırdı Qaradaşı.
Qanmadı azalarmı,
Dağlardan qar, a daşı.

Eləmi yurd içindən,
Satıldı yurd içindən.
Yeyər – atalar demiş,
Ağacı qurd içindən.

Göz baxdı, qəlb vuruldu,
Gözünün qarasına.
İkisidi günahkar,
Taleyin yarasına.

İslam-məhəbbət dini,
Gözəl dindir, gözəl din.
Ehsan et insanlara,
Gözəl dindir, gözəl din.

Əzizinəm ehsandır,
Xoş təbəssüm ehsandır.
Pərişan könüllərə,
Şirin bir söz ehsandır.

Əzizinəm betərdir,
Dərd var dərddən betərdir.
Eh, onlar da keçəcək,
Həsəd dərddən betərdir.

Həyatın qəmnən keçər,
Şadlıqnan, qəmnən keçər.
Gözəl-gözəl dualar,
Gözəl əməlnən keçər.

Əzizim Danadağı,
Hachümmət, Danadağı.
Gavur bizə dağ çəkib,
Bacarmaz dana dağı.

Tanrımız da çox sevir,
Mərhəmətli olanı.
Yetmiş dəfə bağışla,
Sənə tabe olanı.

Əzizinəm eyləmə,
Qeybət, həsəd eyləmə.
Ehsanı başa qaxıb,
Onu gəl puç eyləmə.

Əzizinəm canımız,
Qoy bir olsun canımız.
Tanrıya sevgimizlə,
Cana gəlsin canımız.

Ələsgəri yetirən,
El-oba hayıf oldu,
Bənzərini gətirməz,
Söz-sənət hayıf oldu.

Xəstələrə can verən,
Bir səfa bulağıdır.
Zəmzəmə əvəz varsa,
Təkcə Pərbulağıdır.

Fərqi yox qış, payızın,
Əgər qəlbdə baharsa.
Xoş keçər hər bir anın,
Munisin, dostun varsa.

Hamıdan baş olmaq arzusundan,
Nəfsinə rəhbərdir ağıllı insan.
Hikmət qapısından keçə bilməzsən,
Ötəri hissləri cilovlamasan.

Yaxşılıq etməyə gözəl fürsətlər
Bir an gəlib keçir yaz dumanı tək.
Gəlin bəhsə girək gözəl əməldə,
Bir gün verdiyini alandı fələk.

Əməl dəftərinin səhifəsindədir,
İynə ulduzu tək yaxşılıq belə.
Əynini bəzəmə, dəftəri bəzə,
Yoluna nur səpər vaxtı gələndə.

Yaxşılıq imkanı düşəndə ələ,
Qaçırma onu sən, əlbəəl elə.
Buna gücün çatmır, pislikdən çəkin,
Həmişə saf olsun arzu, niyyətin.

«Dünya axirətin əkin yeridir»,
Gözəl əməlləri toxum kimi at.
Məhsul götürməyin bir az geridir,
Sınaqçün verilib bizə bu həyat.

Hər vaxt gərilidir ölümün oxu,
Vaxtı yetişəndə hədəfik ona.
Tövbəni axıra saxlayır çoxu,
Bəlkə tez çatacaq bu həyat sona.

Otlar pıçıldayır öz dillərində,
Filan xəstəliyin dərmanıyıq biz.
Siz də unutmayın ətrafınızı,
– Deyib, köçüb getdi Vanqa nənəmiz.

Şairlərin qəlbi sönməz məşəldir,
Yanır ki, bu zülmət qatılaşmasın.
Yazırlar sevgidən, bir ülviyyətdən,
Yazırlar ürəklər qoy daşlaşmasın.

KƏLAMLAR

1. *Allah bəndələrini soyanda sənin də dərinin soyulacağı günü xatırla.*

2. *İnsanı Allahından ayrı salmaq körpəni anasından ayırmaqdan qat-qat dəhşətlidir.*

3. *Elə yüksəklikdən baxırsan ki, guya hamı sənə diz çökməlidir. Biz bütə yox, Allaha səcdə edirik.*

4. *«Din bizi yazıqlaşdırır, zülm qarşısında fağırlaşdırır» - deyə fəryad edirsən. Yadına sal ki, Fironların, Nəmrudların «Allahlığına» son qoyanlar məhz dinin rəhbərləri olmuşlar.*

5. *Qardaşım, dində səbr deyəndə mütilik yox, 45 min nəfərlik qoşuna qarşı 71 nəfərlə əqidə uğrunda döyüşə atılan İmam Hüseyn (ə.)-ın mübarizədəki səbri nəzərdə tutulur.*

6. *Kişisən...görürəm, bəs Kişiliyin hanı?*

7. *Şəxsi sədaqət göstərən filankəs vəzifənə sədaqətlidir, özünə yox.*

8. *Təbiəti göstərib Yaradıcı hanı deyirsən? Xörəyin içində aşpazımı görmək istəyirsən?*

9. *İnsan oğlunun ən böyük faciəsi: özünü anlamamaq.*

10. *Böyük adamlar təkcə böyük işlər görənlər deyil, həm də ruhuyla, qəlbiylə böyük işlər görmək arzusu ilə yaşayanlardır.*

11. *O qədər miskinsən ki, səni qəbir evinə çiynində aparacaq insanların sənə görə əziyyətinə heyfim gəlir.*

12. *Xalqın puluyla alt köynəyi kimi dəyişdiyin miniklərlə istədiyin yerə şütüyəndə o miniyi də yada sal ki, ona sən istəmədən mindirilib istəmədiyin yerə aparıldıqdan sonra istəmədiyin sorğu-suala tutulacaqsan.*

13. *Elmi dindən ayırdıqdan sonra bəşər gəmisi batmağa başladı.*

14. *Pünhana qovuşmaq kədəri gözəl kədərdir.*

15. *Texniki möcüzə kamillik möcüzəsi demək deyil.*

16. *Ali millət yoxdur, ali insan var.*

17. *Nə itirsən də imanını itirmə.*

18. *Nəsimini soyduran molla Haqq aşiqini hardan dərk edə bilərdi ki.*

19. *Təvazökarlıq dərsini özündən çox böyük yük götürən qarışqadan öyrənməli.*

20. *Deyirlər ki, dəvələr cütləşəndə insan baxışlarını hiss etdikdə aralanırlar. Bəs sizin necə, dəvə qədər həyanız yoxdurmu?*

21. *Bədən azarın gedəcək, qəlb azarını bilmirəm.*

22. *Rəhbərlərdən ümid gözləyən xalqım! Nəfsinə rəhbərləri gətir rəhbərliyə.*

23. *Ölkəni təzədən qurmaq istəyən kəslər, özünüzdən başlayın!*

24. *Sözlərinə əhsən, amma yerişin Şeytan yerişidir.*

25. *Nəfsinə boyun əydinmi, qəddinin düz olan vaxtı olmayacaq.*

26. *Başqalarına min yol söyürsənsə, bir yol da özünə söy.*

27. *Tələbəni imtahana çəkən kəs, nəfsini də imtahana çək.*

28. *Sənətini yox, bədənini görürük. «Ədəb ağlın surətidir» axı.*

29. *Unutma ki, təkəbbür İblisi Allah dərgahından saldı.*

30. *Sənə «Siz» dedimsə qoltuğun qarpızlanmasın, çiyindəki mələklərədir bu ünvan...*

31. *Burnunu dik tutma, bu, xoruzların adətidir.*

32. *Şərabdan xumarlananda Nizamidən misal çəkirsən – O, «bu haramzadadan uzaqda yaşa»-demişdi axı.*

33. *Dostlar arasında neçə illik bağı qırırsan, barı öz ayaqqabının bağından utan.*

34. *Sovet quruluşundan qurtulmaq «Qensek» kimi düşünmək azarından qurtulmaqdır həm də.*

35. *İdrak buxovdadırsa, orada insan yoxdur.*

36. *Allahın varlığına dəlil istəyirsən, özün ən böyük dəlilsən.*

37. *Dilənçidən pay umursan. O, səndən ucadır.*

38. *İri gövdənlə şeşələnmə. Dəvədən onsuz da balacasan.*

39. *Dəbdə idi rus dili – öyrəndik, dəbdədir ingilis dili – öyrənirik. Görəsən gələcəkdə hansı dili öyrənəcəyik?*

40. *Nəfsinə qul qulun qulu olacaq.*

41. *Azadlıq ruhun azadlığıdır.*

42. *Qorxduğumuz şey dərk etmədiyimiz şeydir.*

43. *Məzmunsuz insan darıxdığı üçün ünsiyyətə can atır, aqil nəsihət, xeyir üçün.*

44. *Təbiəti insanın yaradıcısı hesab edənin ağıldan bəhrəsi yoxdur.*

45. *Ruhun milləti yoxdur.*

46. *Özgə bostanına daşların hamısını atma, özünə də lazım ola bilər.*

47. *«Soyuq məzara da zinətdir insan» - İnsanın məqamına əsl qiymət!*

48. *«Qalib gələcəkmi cahanda kamal?» - sualı bütün zamanlara tuşlanan sualdır.*

49. *«Ömrümdə altıca gün xoşbəxt günüm olmayıb» - deyən Napoleon bizlərə bir ibrətdir. Xoşbəxtlik məqamda deyil.*

50. *Hər şeyin əksi var. Ölümün əksi Həyat deyilmi?*

51. *Həya qadının zinətidir. Həya libasına bürünən xanım açıq-saçıq dünyaya qarşı cihaddadır.*

52. *Mərdanəlik kişinin zinətidir. Düşmənçiliyi də kişilər kimi – İsrafil ağa, Kərəm kimi eləyək.*

53. *Qeyrət ərənlərin zinətidir. Qeyrətli kəs başqasının namusuna kəc baxmaz.*

54. *Vəfa ailənin zinətidir. Xəyanətkarlar sümsük itdən betərdirlər.*

55. *Ətir gülün zinətidir. İnsanlar da güllər kimi müxtəlif ətirli olurlar.*

56. *Halallıq qazancın zinətidir. Həyatı necə gəldi yaşamaq olar, ölümü isə heç cürə qaytarmaq olmaz.*

57. *Düzlük ticarətin zinətidir. Aldadan görəndə xəcalət çəkirəm.*

58. *Nəfsinə hakimlik hakimin zinətidir. Qanunu yox, nəfsini rəhbər tutanlara qanun qənim olar.*

59. *Ədalət məmurun zinətidir. Ədalətli məmurun ayağına dəyən daşa el ağlar, ədalətsiz üçün isə həm türmə, həm də cəhənnəm ağlar.*

60. *Həqiqət qələm əhlinin zinətidir. Bir qarın yeməyə görə millətin evini yıxmaq olmaz!*

61. *Haqqa sadiqlik haqqsevərlərin zinətidir. Məmləkətimizə liderpərəstlər yox, partiyapərəstlər yox, Haqqpərəstlər lazımdır.*

62. *Əsgər Vətən sərhəddinin zinətidir. Onun payına göz dikənlərdən Vətənə oğul olmaz.*

63. *Şirinlik dilin zinətidir. Verən əlin yoxsa, şirin dilin olsun.*

64. *İnsaf fəzilətlərin zinətidir. Nəyi itirsən də insafı itirmə.*

65. *Ədəb insanın zinətidir. Ədəbsiz verilişlər hara, milli qeyrətdən danışmaq hara?*

66. *Təbəssüm üzün zinətidir. Təbəssüm ən ucuz başa gələn xeyirxahlıqdır.*

67. *Mehribanlıq ünsiyyətin zinətidir. Mehriban insan hamıya nur paylayan günəşə bənzər.*

68. *İman qəlbin zinətidir. İmansız qəlb barsız ağacdır.*

69. *Güc idmançının zinətidir. Ancaq ən güclü olmaq istəyirsənsə nəfsinə qalib gəl.*

70. *Gözəl nümunə tərbiyənin zinətidir. Nəsihətçilik yorar, nümunə isə tərbiyə edər.*

71. *Cəsarət igidin zinətidir. Ölümdən qorxu iradəni iflic edir.*

72. *Ölüm həyatın zinətidir. Həyatın dadı ölümün gerçəkliyin-dədir.*

73. *«Soyuq məzara da zinətdir insan». Bunu isə Vurğun deyib. Cansız bədənlə soyuq məzara zinət olacağımız halda, diri bədənlə dünyaya üzqarası olmayaq.*

SON

MÜNDƏRİCAT

I hissə

Könlündədi 10
Allaha xatir 10
Kimdir..... 11
Yazan Tanrı qələmi..... 12
Könül, iman əmanəti..... 12
Ağlar..... 13
Qəlbinin gözüylə bax..... 15
Ona qovuşacaqsan..... 15
Sinəmdə bir ürək var..... 16
Xəbərin varmı 17
Nədəndi..... 17
Dilərəmmi mən..... 18
Ya Seyidəli ağa..... 19
Ağa..... 20
Sənin..... 21

II hissə

Bu gümandadı..... 23
Birləşdirmişəm..... 23
İnsan var ki..... 24
Nə qazandıq, nə itirdik
bu ildə..... 25
Olsun..... 26
Vardır..... 27
Hərə bir ömürdür,
yaşayır, qardaş..... 27
Nə xoşdur, Allah..... 28
Mübarək illərin, qardaş..... 29
Harasındadı..... 30

III hissə

Qına..... 32
Anılacaqdır..... 32
Utanmayasan..... 33
Olsun..... 33
Yazıq..... 34
Ləngiməyir..... 34
Düşər..... 35
Gedir..... 35
Çəkər..... 35
Sevincimi böl, qardaşım..... 36
İnam arzu doğurur..... 36
Gedər..... 37
Biri rəhmətlikdir,
biri lənətlik..... 37
Təmsil..... 38
Ölüm əbədiyyətdir..... 38

IV hissə

Bağışla oğlunu..... 40
Əlvida..... 40
Göyçəm..... 41
Torpağın ətri..... 42
Yetişdi..... 43
Nədən utanmadın,
həya etmədin..... 43
Babacan..... 45

V hissə

Məhəbbət..... 47
Öpərəm..... 48
Gözlər demirmi..... 48
Gözəl..... 48
Olmur..... 48
Könül verərsənmi..... 49
Dilim onçün şirinləşib..... 50

VI hissə

İlahi payam..... 52
Salamlar Anara..... 52
Hələ biz birinciyik..... 53
Sizə uğur deyirik..... 53
Hərəmizə pay düşdü..... 53
Ülviliyə ucal sən.....
Oğul 54
Tanrım pay göndərib..... 55

İkiliklər..... 56
Bayatılar – dördlüklər..... 59
Kəlamlar 72

FƏRZALI ABBAS oğlu RÜSTƏMLİ

KÖNÜL KİTABI

(Azərbaycan dilində)

Texniki redaktor: *Dürdanə Mirtağıqızı*

Kompyüter dizayneri: *Telman Qədirli*

Korrektor: *Elnarə Mirtağıqızı*

Kompüter yığımı: *Vəfa Şahbazova*

Yığılmağa verilmiş 06.02.2005.
Çapa imzalanmış 16.03.2005.
Şərti çap vərəqi 5. Sifariş №500.
Kağız formatı 60x84 1/16. Tiraj 500.

*Kitab «**Nurlan**» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor: **prof. N.B.Məmmədli***
E-mail: nurlan1959@rambler.ru
Tel: 497-16-32; 850-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

AZf-233705



Fərzalı Abbas oğlu Rüstəmli 1963-cü ildə Göyçə mahalının Cil kəndində (indiki Ermənistanın Krasnoselo rayonu) dünyaya göz açmışdır. Azərbaycan Beynəlxalq Universitetində müəllimlik fəaliyyətilə yanaşı, mətbuatda müntəzəm olaraq fəlsəfi, dini, əxlaqi mövzularda çıxış edir.

Müəllif hələ məktəb illərindən poeziyaya könül bağlasa da, ilk şerləri tələbə olanda dərc olunmuşdur. «Könül kitabı»na onun əsasən son dövrlərdə yazdığı şerləri daxil edilmişdir.